EYNULLA MƏDƏTLİ

# HEYDƏR ƏLİYEVİN SİYASİ İRSİ:

## *AZƏRBAYCANÇILIQ VƏ AZƏRBAYCAN-TÜRKİYƏ BİRLİYİNİN FƏLSƏFƏSİ*

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Elm və təhsil"
Bakı – 2023

*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu elmi şurasının 08 dekabr 2023-cü il tarixli, 10 saylı qərarı ilə nəşr olunur.*

**Elmi məsləhətçi:** **İlham Məmmədzadə**
*fəlsəfə elmləri doktoru, professor*

**Elmi redaktor:** **Füzuli Qurbanov**
*fəlsəfə elmləri doktoru*

**Nəşriyyat redaktoru:** **Qabil Camalov**

**Kompyuter yığımı və korrektor:** **Mehriban Əliyeva**

**Eynulla Mədətli.** Heydər Əliyevin siyasi irsi: Azərbaycançılıq və Azərbaycan-Türkiyə birliyinin fəlsəfəsi. Bakı, "Elm və təhsil", 2023, 324 s.

*Kitabda Ulu Öndər Heydər Əliyevin zəngin və çoxcəhətli siyasi irsinin, xüsusilə də bu irsdə mühüm yer tutan Azərbaycançılıq məfkurəsinin və Azərbaycan-Türkiyə birliyinin təməl prinsipi olan "Bir millət, iki dövlət" düsturunun əhəmiyyətinin və reallaşdırılmasının fəlsəfi cəhətləri araşdırılmış, Azərbaycan Respublikasının öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsində bu əbədiyaşar irsin yeri və tarixi əhəmiyyətinin elmi-fəlsəfi təhlilinə cəhd göstərilmişdir.*

*Kitab elmi ictimaiyyət və geniş oxucu dairəsi üçün nəzərdə tutulmuşdur.*

4702000000 qrifli nəşr
N-98-2023

© Eynulla Mədətli, 2023

***Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşahəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.***

*Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 sentyabr 2022.*

## Giriş

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi, iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu praktik şəkildə gerçəkləşdirmiş strateq kimi çağdaş tariximizdə əbədiyaşarlığını təmin etmiş, hələ sağlığında Azərbaycançılığın canlı simvoluna çevrilmişdir.

Tarix sübüt edir ki, siyasi irs əsasən xalqların yetişdirib tarix səhəsinə çıxardığı rəhbərlərin, sərkərdələrin, görkəmli şəxsiyyətlərin geniş miqyaslı ictimai-siyasi fəaliyyəti ilə formalaşır. Bu siyasi liderlərin şəxsi məziyyətləri, milli-mənəvi keyfiyyətləri fonunda milli iradə formalaşır, milli inkişaf yolu müəyyənləşir, milli dövlətçilik bərqərar olur, beləliklə də zəngin və əbədi milli irs yaranır. Yəni xalqın önündə gedən siyasi liderin, onun inandığı, güvəndiyi rəhbərin, xalqın varlığı və müqəddəratı üçün məsuliyyət daşıyan sərkərdənin şəxsi keyfiyyətləri həm də dövlətlərin, xalqların taleyini müəyyənləşdirən vacib amildir.

İnkişaf etmiş dövlətlərin tarixində onları sınağa çəkən, inkişaf yolunda maneəyə çevrilən hadisələr az olmamışdır. Bu hadisələr istər başlanğıcda, istərsə də sonralar həmin xalqları tutduqları yoldan sapındırmağa çalışsa da, tarixi iradə həmin xalqların firavan inkişaf yoluna çıxma-

sına kömək etmişdir. Dünya xalqları buna görə məhz şəxsiyyətlərə, onların adı ilə bağlı olan zəngin siyasi irsə minnətdardır.

Yəni tarix şəxsiyyətləri insanlara sanki özünün sınaqları üçün bəxş etmişdir. Məhz şəxsiyyətlər dövrü öz əhatəsinə almış zülməti başqalarından daha yaxşı hiss etdiklərindən, ona qiymət verməyi, verilən qiymətdən düzgün nəticə çıxarmağı bacardıqlarından daim ziyaya doğru can atır, nurlu bir yol tapmağa çalışırlar. Onlar zaman adlanan orduya sərkərdəlik missiyasını öz üzərlərinə götürərək bir-birinin ardınca əldə olunan qələbələrlə bu ordunun özünün də ruhunu dəyişib yeniləşdirməyə müvəffəq olurlar. Belə tarixi şəxsiyyət türklər üçün Mustafa Kamal Atatürk, amerikalılar üçün Corc Vaşinqton, hind xalqı üçün Cəvahirləl Nehru, Pakistan üçün Məhəmməd Əli Cinnah, ingilislər üçün Uinston Çörçill, fransızlar üçün Şarl de Qolldursa, biz azərbaycanlılar üçün, şübhəsiz, Heydər Əliyevdir!

Fəlsəfə daim, tarixi şəxsiyyət-millət qarşılıqlı əlaqəsində refleksiya etmişdir. Yuxarıda təsvir etdiyimiz mənzərə bu məsələnin liderlik aspektində müəyyən təqdimatıdır. Ancaq burada bizim yanaşmamızın liderlər-tarix-milli tarix kontekstinin tarixi rakursda fəlsəfi dərkinin əhəmiyyətli məqamları ifadə edilmişdir. Məlumdur ki, ümumiyyətlə, müasir mərhələdə şəxsiyyət, cəmiyyət tarix və fəlsəfənin tarixi bağlılığında geniş araşdırılır. Buradan fəlsəfənin tarixi, cəmiyyətin tarixi və tarixin fəlsəfəsi arasında

əlaqələrə baş vurulur. Bu mürəkkəb qnoseoloji sxemdə mərkəzi yerlərdən birini böyük şəxsiyyətlərin siyasi lider kimi oynadıqları rolun fəlsəfi refleksiyası tutur.

Bu prizmadan baxanda Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının Ümummilli Lideri xilaskarlığı, quruculuğu, birləşdiriciliyi çox maraqlı aspektdə aktuallıq kəsb edir. Əsərin yazılışının məntiqi də məhz bu ideyanın fəlsəfi-tarixi təqdimatına həsr edilmişdir. Əsərin məntiqi izah dinamikası konkret olaraq onun strukturu və qnoseoloji funksiyasının özəlliyinə əsaslanır. Burada baza tezis rolunu Ulu Öndərin Lider kimi rolunun azərbaycançılıqla Azərbaycan-Türkiyə birliyinin qarşılıqlı əlaqəsi fonunda təhlil edilməsi təşkil edir. Mətnin semantik quruluşu baxımından bu, Heydər Əliyevin müstəqil dövlət quruculuğunda ideoloji konseptlə xarici siyasətin prioritetinin sintezində fəlsəfi-tarixi təqdimatına cəhd kimi də qəbul edilə bilər. Bu yanaşmanın konstruktiv və əsaslı olduğu kitabın məzmunundan tam aydın görünür. Həmin elmi məqsədin təmin edilməsi üçün əsərin strukturuna məntiqi dinamika prizmasında konkret nəzər salaq.

Öncə, vuğulayaq ki, Ulu Öndərin keçən əsrin son onilliyində Azərbaycana qayıdışının siyasi irslə əlaqələndirilməsi təsadüfi deyildir. Çünki bu qayıdış böyük bir siyasi xadimin ölkəsinin çox çətin vəziyyətdə olan dövlətçiliyini, milli ləyaqətini və mədəni özgürlüyünü xilas etməyin rəmzidir, əyaniləşməsidir. Buna görədir ki, kitabda qa-

yıdış məsələsinin tədqiqinə siyasi irsin substantiv və funksional aspektlərin fəlsəfi anlamının təhlili ilə başlanır.

Sonrakı hissələrdə Azərbaycanın ayrılmaz bir hissəsi kimi Naxçıvan, bütövlükdə Azərbaycan-Türkiyə qarşılıqlı əlaqələrində Heydər Əliyevin liderliyi tarixi xronologiya ilə fəaliyyətin məzmun və məqəsdlərinin qarşılıqlı əlaqəsində fəlsəfi-tarixi rakursda araşdırılır. Bu da üç faktorun – fəaliyyət müddəti, ideya transformasiyaları və liderlik miqyasının yeniləşməsi prizmasında həyata keçirilir. Bu mənada Ulu Öndərin Naxçıvandakı fəaliyyəti həm ideya, həm də liderlik miqyası baxımından təməl kimi götürülür. Faktlar bu yanaşmanın doğru olduğunu sübut edir.

Heydər Əliyevin Naxçıvandakı fəaliyyətində Türkiyə siyasəti ilə Azərbaycana yenidən rəhbər seçildiyi dönəmdəki fəaliyyətinin siyasi, ideoloji, geosiyasi, sosial-iqtisadi və mədəni kontekstlərdə müqayisəsi və təhlili bizcə, maraqlıdır. Bu, bütövlükdə böyük siyasi liderin Ümummilli Liderlik səviyyəsinə yüksəlməsinin fəlsəfi-tarixi dərki üçün vacibdir.

Bu məqsədə daha aydın çatmaq üçün məqsədyönlü şəkildə Ulu Öndərin həm ölkədə, həm də xarici səfərlərində etdiyi nitqlərindən, həmçinin rəsmi sənədlər və faktlardan geniş istifadə edilmişdir. Bizcə, tarixin fəlsəfəsində böyük şəxsiyyətlərin təcrübəsinin canlı və salnamə üslubunda təqdimatının fəlsəfi anlamı daha genişdir.

Bu səbəbdən əsərdə Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının siyasi-ideoloji məzmununa və dövlətçi-

lik kontekstində mədəni irsə verdiyi əhəmiyyət yer almışdır. O cümlədən, Ulu Öndərin Azərbaycan xalq mədəniyyətinə çox doğma münasibətinin fəlsəfi-tarixi aspektinə baş vurulmuşdur.

Nəhayət, əsərin sonunda Heydər Əliyevin Ümummilli Lider kimi qlobal miqyasda malik olduğu təsir dairəsinin bir nümunəsi Ukrayna timsalında araşdırılmışdır.

Bütün bunlar Ulu Öndər haqqında söylənmiş müxtəlif fikirlərin işığında həyata keçirilmişdir. Bir neçə nümunədə bunu görmək mümkündür.

Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı tarixi xidmətlərini təhlil edən, akademik Ramiz Mehdiyev yazır: "Tarixdə adı dövlətçiliyin simvoluna çevrilən və onunla qoşa çəkilən çox az siyasi liderə rast gəlmək olar.Tanrının və taleyin hökmü ilə müstəqil dövlətçiliyimizin ən müasir tarixi də məhz belə liderin adı ilə bağlıdır və dövlətçilik salnaməsinə şanlı səhifələr məhz onun siyasi xətti ilə, rəhbərliyi ilə yazılıb".[1]

Ümumiyyətlə, bu bir həqiqətdir ki, xalqımız tarix boyu qazandığı çoxəsrlik dövlətçilik ənənələrini, milli dəyərləri, qürurverici nailiyyətləri, ali mənəvi keyfiyyətləri məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək dayanıqlı müstəqil dövlətini qurmuş, qədim tarixə və zəngin

[1]Ramiz Mehdiyev. Azərbaycanda müstəqil dövlətçiliyi yaradan və yaşadan Ümummilli lider Heydər Əliyevin qadir siyasətidir. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin elmi biblioqrafik göstəricisi, 2 cilddə, 1-ci cild, Bakı, "Şərq-Qərb", 2013, s.8.

mənəviyyata malik millət kimi mövcudluğunu, özünü idarə etmək bacarığını ən yüksək səviyyədə nümayiş etdirmişdir.

# I FƏSIL

# HEYDƏR ƏLİYEVİN SİYASİ İRSİ VƏ AZƏRBAYCANÇILIQ

## *§ 1. Heydər Əliyevin siyasi irsinin özəllikləri, milli məfkurə və milli dövlətçilik*

Ötən əsrin 70-80-cı illərində vətənvərpər və milli ruhlu bir liderin – Heydər Əliyevin Azərbaycana rəhbərliyə irəli çəkilməsi hər bir azərbaycanlıda milli özünüdərk hisslərini, soy-kökə bağlılığı gücləndirmiş, həm də xaricdə yaşayan soydaşlarımızla əlaqələrin güclənməsinə əlverişli imkanlar yaratmışdır. Ulu Öndər Heydər Əliyev azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini – ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru – müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurdu. Ümummilli Lider məhz həmin illərdə milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, kadrların milliləşdirilməsi, azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Əgər Ulu Öndər Heydər Əliyevin hələ respublikamıza birinci rəhbərliyi dövründə Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də örtülü şəraitdə görülən işlər olmasaydı, bu gün Azərbaycanın



**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**